# Sumqayıt karbamidi həm də sərhədləri aşır

yak və karbon dioksidin sintezi nəticəsində əmələ gəlir. Onun bir üstünlüyü də həm ayrı, həm də digər gübrələrlə birgə istifadə oluna bilməsidir. Bundan başqa, karbamiddən mal-qara yemi və digər kimyəvi maddələrin istehsalında, eləcə də əczaçılıqda geniş istifadə olunur.

Belə əhəmiyyətli bir məhsul buraxan zavodun layihələndirilməsi və tikintisi ammonyak istehsalı üzrə Danimarkanın "Haldor Topsoe" və karbamid istehsalı üzrə Niderlandın "Stamicarbon B.V" şirkətlərinin texnologiyası əsasında Cənubi Koreyanın "Samsung Engineering" şirkəti tərəfindən həyata keçirilib. Finlandiyanın "Neste Engineering Solutions" şirkəti layihənin idarə edilməsi üzrə məsləhət və müstəqil təftiş xidmətləri göstərib. Tikintinin pik vaxtında zavodun inşasına ümumilikdə 3600 nəfərdən çox işçi cəlb olunub və bütün iş həcmi qəzasız şəraitdə yekunlaşıb.




Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan vəsait hesabına həyata keçirilib. Daha sonra Cənubi Koreyanın İxrac-İdxal Bankından (KEXIM), habelə "Societe Generale" (Fransa), "Deutsche Bank" (Almaniya) və "UniCredit" (Avstriya) banklarından dövlət zəmanəti əsasında 500 milyon avro məbləğində vəsait cəlb edilib. Layihə ilə bağlı vergi və rüsumların, həmçinin digər xərclərin ödənilməsi məqsədilə SOCAR tərəfindən 100 milyon avro məbləğində vəsait ayrılıb.

Prezident İlham Əliyev bu müəssisəni belə xarakterizə etmişdir: "Karbamid zavodunun özəlliyi həm də ondan ibarətdir ki, burada xammal kimi istifadə olunan məhsul təbii qazdır, yerli məhsuldur. Yəni karbamidin tərkibində xarici komponent yoxdur. Burada ildə 435 milyon kubmetr təbii qazdan istifadə olunacaq. Əgər biz təbii qazı indi bugünkü qiymətlərlə mövcud xarici bazarlara satsaydıq, bundan təqribən 80 milyon dollar vəsait əldə edə bilərdik. Ancaq karbamid şəklində istehsal olunacaq məhsulun dəyəri 150-160 milyon dollar olacaqdır. Yəni biz səmərəliliyi demək olar ki, iki dəfə artırmışıq. Ölkəmiz üçün çox gözəl ixrac məhsulu yaratmışıq. Kənd təsərrüfatının inkişafı üçün yerli gübrə yaratmışıq və ölkəmizin qeyri-neft sənayesinə böyük töhfə vermişik".

Nəzərdə tutulmuşdur ki, 2024-2025-ci illərdə Karbamid zavodunda bir sıra rəqəmsal transformasiya layihələri həyata keçirilsin. Bu layihələrin reallaşması nəticəsində zavodun maksimum istehsal gücü ilə fəaliyyət göstərməsi ilə yanaşı, hər ton karbamid üçün sərf olunan təbii qaz miqdarının azalması da təmin ediləcək. Təbii qaz sərfiyyatının azalması isə öz növbəsində atmosferə atılan karbon emissiyalarının azalması və zavodun ekoloji cəhətdən daha təmiz müəssisəyə çevrilməsi ilə nəticələnəcək. Bütün bu proseslər yekunda əlavə dəyər yaratmaqla ölkə iqtisadiyyatına mühüm töhfə verəcək.

Karbamid zavodu getdikcə inkişaf edir. Hazırda müəssisə dünyada innovativ rəqəmsal standartları tətbiq edən şirkətlər üçün meyarları müəyyənləşdirən "Global Lighthouse Network" platformasına keçidə doğru addımlar atmaqdadır. Rəqəmsal transformasiya layihələri çərçivəsində həyata keçirilən işlər cari il boyu aparılacaq qiymətləndirmələrdən sonra zavoda "Global Lighthouse" mükafatının verilməsinə və müəssisənin qabaqcıl istehsal obyektləri sırasında yer almasına səbəb olacaq.

Qeyd edildiyi kimi, zavod ildə xammal olaraq 435 milyon kubmetr təbii qaz həcmindən istifadə edir. Bu, müəssisəyə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücünə malik olmağa imkan verir. Beləliklə, bu zavod Azərbaycanın karbamidə olan tələbatını tam təmin edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 25 iyul (№ 152).- S.9.